**14.05.2024г. 3 «а» курс. 44.02.02. Azərbaycan dili**

**Mövzu: Felin formaları.**

Felin 6 forması var: əmr,xəbər,arzu, lazım, vacib, şərt.

**1.Əmr formasında** görülən iş ya əmr olunur,ya xahiş edilir, ya da məsləhət verilir. Özünün şəkilçisi yoxdur, fel kökünə şəxs şəkilçilərini artırmaqla düzəlirlər.Məs: Adını çək, qulağını bur.

| | *tək* | *cəm* |
|---|---|---|
| *I şəxs* | *mən gəlim* | *biz gələk* |
| *II şəxs* | *sən gəl* | *siz gəlin* |
| *III şəxs* | *o gəlsin* | *onlar gəlsinlər.* |

**2.Felin xəbər forması** işin nə vaxt və hansı şəxs tərəfindən görüldüyünü bildirir.Bu formada fellər zamana və şəxsə görə dəyişir.Felin 3 zamanı var-indiki zaman, keçmiş zaman və gələcək zaman.

**a) İndiki zaman** işin, hərəkətin danışıq vaxtı görüldüyünü bildirir, -ır,-ir,-ur,-ür şəkilçisi və şəxs şəkilçisi ilə düzəlir. Məs:

| | *tək* | *cəm* |
|---|---|---|
| *I şəxs* | *mən gəlirəm* | *biz gəlirik* |
| *I şəxs* | *sən gəlirsən* | *siz gəlirsiniz* |
| *III şəxs* | *o gəlir* | *onlar gəlirlər* |

**b) Keçmiş zaman** işin, hərəkətin danışıq vaxtından əvvəl olduğunu bildirir və 2 yolla əmələ gəlir-şühudi keçmiş zaman və nəqli keçmiş zaman.

**1. Şühudi keçmiş zaman** felin kökünə -dı, -di, -du, -dü şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir. Məs:

| | *tək* | *cəm* |
|---|---|---|
| *I şəxs* | *mən gəldim* | *biz gəldik* |
| *II şəxs* | *sən gəldin* | *siz gəldiniz* |
| *III şəxs* | *o gəldi* | *onlar gəldilər* |

**2.Nəqli keçmiş zaman** felin kökünə -mış, -miş, -muş, -müş şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir. Məs:

*tək* *cəm*

*I şəxs mən gəlmişəm* *biz gəlmişik*

*II şəxs sən gəlmişsən* *siz gəlmişsiniz*

*III şəxs o gəlmişdi* *onlar gəlmişlər*

**c) Felin gələcək zamanı** işin, hərəkətin danışıq vaxtından sonra olacağını bildirir və 2 yolla əmələ gəlir. Qəti gələcək zaman və qeyri -qəti gələcək zaman

**1.Qəti gələcək zaman** felin kökünə -acaq, -əcək şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir. Məs:

*tək* *cəm*

*I şəxs mən gələcəyəm* *biz gələcəyik*

*II şəxs sən gələcəksən* *siz gələcəksiniz*

*III şəxs o gələcək* *onlar gələcəklər*

**2.Qeyri-qəti gələcək zaman** felin kökünə -ar, -ər şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir. Məs:

*tək* *cəm*

*I şəxs mən gələrəm* *biz gələrik*

*II şəxs sən gələrsən* *siz gələrsiniz*

*III şəxs o gələr* *onlar gələrlər*

**Çalışma.** Bir feli götürün və onu bütün şəxslərdə zamana və şəxsə görə dəyişin.